# Beynəlxalq konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

**Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə iyunun 15-də Şuşa şəhərində "Yeni dünya nizamı: geosiyasi aspektlər və qlobal çağırışlar" mövzusunda keçiriləcək beynəlxalq konfransın iştirakçıları iyunun 14-də Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil və gül dəstələri qoyublar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.**



Sonra konfrans iştirakçıları Şəhidlər xiyabanını ziyarət ediblər. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.



Daha sonra "Türk şəhidliyi" abidəsi ziyarət edilib. Azərbaycanın istiqlaliyyəti uğrunda canlarından keçmiş, Azərbaycan-Türkiyə qardaşlığının əbədiliyini və sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan qəhrəman türk qardaşlarımızın xatirəsi anılıb, abidənin önünə əklil qoyulub, gül dəstələri düzülüb.

*"Azərbaycan"*





Azərbaycan.- 2025.- 15 iyun (№ 122).- S.2.